**UOT: 338.43, 338.435**

# KƏND YERLƏRİNDƏ ƏHALİ MƏŞĞULLUĞUNUN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Səid Rövşən oğlu Mustafayev**

***Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı***

***e-mail:*** **said@metalico.az**

***Xülasə***

*Azərbaycanda əhalinin 47,2 faizi kənd yerlərində yaşayır və kənddə yaşayanların 33-35 faizi əmək qabiliyyətlidir. Bazar iqtisadiyyatı şəraitində ölkəmizdə artan əmək qabiliyyətli işçi qüvvəsinin məşğulluğunun təmin olunması, əməyin gəlirlilik səviyyəsinin yüksəldilməsi və ümumiyyətlə sosial həyat şəraitinin müasir tələblər səviyyəsində qurulması ilə bağlı məsələlərin həllinə ehtiyac var. Son illərdə ölkəmizdə regionların inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi kənddə sosial-iqtisadi mühitin yaxşılaşdırılmasına, miqrasiya proseslərinin zəifləməsinə müsbət təsir göstərmişdir.*

*Məqalədə kənd yerlərində məşğulluğun təmin olunmasında kənd təsərrüfatının yeri və rolu, kənddə sosial rifahın artırılması, kənd əhalisinin gəlirlərinin formalaşmasında dövlətin tənzimləyici rolu və əmək bazarının fəaliyyəti araşdırılır.*

***Açar sözlər:*** *sosial-iqtisadi inkişaf, kənd təsərrüfatı, əmək resursları, əmək bazarı, məşğulluq.*

## Giriş

Kənd təsərrüfatında əmək resurslarının iqtisadi səmərəliliyinin artırılması istiqamətində görülən tədbirlər təbii olaraq sosial-iqtisadi proseslər nəticəsində yarana biləcək qeyri-müəyyənliyin fəsadlarının yumşaldılmasına və kənd əməkçilərinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Qeyri-müəyyənlik halları ölkəmizin iqtisadiyyatının əsasını təşkil edən neft-qaz sektorundakı qiymət dalğalanmaları səbəbindən sahənin dinamik inkişaf konsepsiyasındakı riskləri - manatın məzənnəsinin dəyişməsi riskini, əmək bazarındakı tələb və təklif tərəddüdlərini, sivil sahibkarlıq mühitinin formalaşmasında, eləcə də əmək resurslarının ixtisas səviyyəsinin məhdudluğu səbəbindən rəqabət qabiliyyətliliyin aşağı olmasını və s. özündə ehtiva edir. Bütün bunlar və regionlararası qeyri-bərabər inkişaf reallıqları ölkədə, xüsusən də kənd yerlərində sivil əmək bazarının formalaşmasında və məşğulluğun təmin olunmasında maneə yarada biləcək amillər kimi çıxış edir.

Müasir dövrdə kənd yerlərində əmək bazarındakı münasibətlər məşğulluğun özünəməxsusluğunu şərtləndirir. Məşğulluq siyasəti isə əməkqabiliyyətli əhalinin istehsal, ticarət, xidmət və digər ixtisaslar üzrə əmək prosesinə cəlb olunmasının tənzimlənməsində dövlət orqanlarının və digər sosial institutların məqsədyönlü fəaliyyətini özündə birləşdirir. Məşğulluqla

bağlı tədbirlərin daha optimal təşkili üçün hüquqi-normativ aktlar, hökumət qərarları xüsusi əhəmiyyət kəsb edir. Bu tədbirlər əməyin təşkili və məşğulluqla bağlı proseslərin tənzimlənməsinə müsbət təsir göstərir və ölkə üzrə məşğulluq siyasətinin qarşısında duran vəzifələrin reallaşdırılması şəraitini formalaşdırır.

Aqrar sahədə əmək resurslarından səmərəli istifadə edilməsi nəticə etibarilə əmək məhsuldarlığının artırılmasına və ümumiyyətlə əməyin iqtisadi səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Məhz resurslardan səmərəli istifadə kənd təsərrüfatı istehsalı subyektlərində əmək məhsuldarlığının yüksəldilməsinin vahidinin əsas vasitəsi hesab edilir. Aqrar sahədə fəaliyyətin şaxələndirilməsi istiqamətində son illərdə görülməkdə olan işlər əmək resurslarından səmərəli istifadəyə əhəmiyyətli, müsbət təsirlər göstərməkdədir.

**Kənd yerlərində aqrar sahədə məşğuliyyət**

Kənd təsərrüfatı istehsalı kənd yerlərində əsas məşğulluq sferası kimi səciyyələnir. Statistik məlumatlara əsasən, 01.01.2021-ci il tarixə ölkədə fəal əhalinin sayı 5252,5 min nəfər təşkil edib və bundan 4876,6 min nəfəri məşğul əhalidir. Məşğul əhalinin isə 34,5%-i, yəni 1684,5 min nəfəri iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə muzdla çalışan işçilər, muzdla çalışanların da 59,5%-i kənd təsərrüfatı, meşə və balıqçılıq sahəsi ilə məşğuldur [4].

Kənd təsərrüfatı əməyinin stimullaşdırılması istehsalın, habelə aqrar-sənaye inteqrasiyasının motivləşdirilməsi istiqamətində görülən tədbirlər əmək bazarının strukturuna əsaslı təsir göstərir. Məhz bu baxımdan haqqında danışılan təsirin pozitiv istiqamətdə gücləndirilməsi baxımından innovasiya amilinin roluna diqqət artırılmalıdır. Bu yanaşmanın uğuru iqtisadi, sosial və texnoloji innovasiyaların üzvi vəhdət təşkil etməsindən həlledici dərəcədə asılıdır.

Əmək bazarının inkişafında xüsusilə kənd ərazilərində səmərəli dövlət tənzimlənməsi geniş imkanlar yaradır. Kənd təsərrüfatı fəaliyyətində əsas amil kimi torpaqdan istifadənin göstəricilərinin yaxşılaşdırılması nəinki bitkiçilikdə, habelə heyvandarlıqda da məşğulluğun səviyyəsinə birbaşa təsir göstərir. Hazırda bu istiqamətdə atılan sistemli və davamlı addımlar kənd təsərrüfatında məşğulluğun səviyyəsinin yüksəldilməsini şərtləndirən amil kimi özünü daha əyani şəkildə göstərir.

Kənd təsərrüfatına dövlət dəstəyinin sistemli xarakter alması, yeni aqroparkların yaradılması, sahibkar təsərrüfatlarının lazımi istehsal vasitələri ilə təmin olunma vəziyyətinin yaxşılaşdırılması, gənclərin kənd yerlərində qalıb əmək fəaliyyəti ilə məşğul olmaları baxımından getdikcə daha təsirli addım hesab olunur [3].

Əhali məşğulluğu ilə bağlı proqramların xüsusilə kənd ərazilərində dərindən və davamlı tədqiqi cəmiyyətin inkişafı üçün optimal və müvafiq mexanizmlərin formalaşdırılmasına, sosial-iqtisadi problemlərin kompleks həllinə, əhalinin çoxşaxəli problemlərinin sistemləşdirilməsinə, proqnozlaşdırılmasına və fəaliyyət üslublarının müəyyənləşdirilməsinə imkanlar açır. Burada nəzərə alınmalıdır ki, demoqrafik siyasətin və demoqrafik sabitliyin mühüm göstəriciləri kimi ailə-nikah, doğum, ölüm, təbii artım, insanların sağlamlığının qorunması və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, cəmiyyətin hər bir üzvünün mənafeyinə uyğun normal əhali artımını təmin edən şəraitin yaradılması mühüm şərtlərdəndir.

Araşdırmalar göstərir ki, inkişaf etmiş dünya ölkələrində əhalinin həyat səviyyəsinin yüksək və səhiyyənin maddi-texniki bazasının kifayət qədər güclü olmasına, ölüm səviyyəsinin minimumluğuna baxmayaraq əhalinin artımında ciddi problemlər mövcuddur. Ona görə də həmin ölkələrdə miqrasiya

proseslərinin daha effektiv tənzimlənməsi, fəaliyyət sahələrinin artırılması və çeşidlənməsi vacib məsələ kimi baxılır.

Kənd yerlərində əmək bazarının inkişafı baxımından məşğulluğun səviyyəsinin yüksəldilməsi və məşğulluğun strukturunun yaxşılaşdırılması imkanlarının demoqrafik və miqrasiya aspektlərinin birgə nəzərdən keçirilməsi məqsədəuyğundur [1]. Məlumdur ki, son illərdə kənd yerlərində əmək bazarı iştirakçıları qismində iştirak edən kəndli gənclərin təhsil və ixtisas səviyyəsi əvvəlki onilliklərlə müqayisədə nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Dövlətimizin xüsusilə aqrar sahə üzrə ali təhsil almaq istəyən gənclər üçün dövlət sifarişli yerlərin artırılması sahəsindəki tədbirləri bu baxımdan əhəmiyyətli rol oynamışdır. Bununla yanaşı, yaxın xaricdə iş yerləri bazarına müraciət edənlərin sayında da müsbət dinamika müşahidə edilir. Bu cəhətdən gənclərin kənddə məşğulluğu səviyyəsinin yüksəldilməsi üçün daha ciddi motivasiyaya ehtiyac vardır.

Məşğulluğun təminatı ilə bağlı vəziyyətin sabitləşdirilməsində və müvafiq problemlərin həllində, məsələn, ixracyönümlü ərzaq və kənd təsərrüfatı məhsulları üzrə xarici ticarət fəaliyyətinin də mühüm təsiri vardır. Belə ki, ixracın genişləndirilməsi fonunda idxalın tənzimlənməsi, bununla əlaqədar olaraq idxaləvəzedici istehsal və eyni zamanda yeni xidmət sahələrinin yaradılması ölkə əhalisinin rifahının yaxşılaşdırılmasına, iqtisadi təhlükəsizliyin və xüsusilə ərzaq təhlükəsizliyinin təmin edilməsinə müsbət təsir göstərə bilər. Beləliklə, adekvat tənzimləyici tədbirlərin hesabına əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün əlavə imkanlar formalaşa, iş yerləri açıla və yeni daha əhatəli istehsal və xidmət sahələri yaradıla bilər. Sadalanan proseslər əhalinin sosial-demoqrafik qrupları və təbəqələri üçün sağlam həyat tərzini təmin etməklə kənd əhalisinin yaşlı hissəsinin, ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsinə, daxili istehlak bazarında tələb və təklifə adekvat olan istehlak mallarının artmasına, bütövlükdə əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə zəmin yaradır.

## Kənd əhalisinin gəlirlərinin formalaşmasında dövlətin tənzimləyici rolu

Sivil bazar münasibətləri şəraitində kənd əhalisinin gəlirlərinin dövlət tənzimlənməsi aşağıdakı yollarla reallaşa bilər:

- əhalinin həyat səviyyəsinin dövlətin minimum sosial standartlar sistemi vasitəsilə tənzimlənməsi;
- gəlirlər və əməkhaqqı sahəsində nəzərdə tutulmuş zəmanətlərin təmin olunması üçün büdcə vəsaitlərinin həcminin müəyyənləşdirilməsi;
- fiziki və hüquqi şəxslərin əldə etdiyi gəlirlərdən birbaşa vergitutma sistemi və dolayı təsirlər;
- respublika səviyyəli sahə, peşə, tarif, ərazi və digər razılaşmaların qəbul edilməsi ilə bağlı sosial tərəfdaşlıq sistemi çərçivəsində danışıqlar prosesində iştirak;
- sosial proqramların qəbulu.

Qeyd olunan istiqamətlərdə atılan sistemli addımların səmərəliliyi yerlərdə kənd təsərrüfatında əmək bazarının inkişafından, iqtisadi, sosial, hüquqi və institusional amillərin təsir vektorlarının və kəmiyyət xarakteristikalarının üzvi vəhdət təşkil etməsindən birbaşa asılılığını göstərir.

Kənd təsərrüfatında çalışan əhalinin gəlirlərinin tənzimlənməsində dövlətin artan rolu aşağıdakı istiqamətlərdə təmin oluna bilər:

- satılan kənd təsərrüfatı məhsullarına təminatlı qiymətlərin tətbiqi hallarının hərtərəfli əsaslandırılması;
- kənd təsərrüfatı məhsullarının bazara çıxış imkanlarının artırılması;
- istehsalçıların maliyyəyə çıxışının asanlaşdırılması, bu əsasda müvafiq infrastrukturun (topdansatış mağazaları, nəqliyyat və s.) modernləşdirilməsi və kreativliyin dəstəklənməsi;
- kənd təsərrüfatı istehsalı və emal sənayesi subyektləri arasında qiymət disparitetliliyinin yumşaldılması tədbirlərinin davamlılığının təmin olunması;
- kənd yerlərində özünüməşğulluq və sahibkarlıq fəaliyyətindən yaranan gəlirlərin formalaşması şəraitinin yaxşılaşdırılması, yersiz müdaxilələrin aradan qaldırılması, güzəştli kreditlərin verilməsi imkanlarının artırılması, nəqliyyat sisteminin təkmilləşdirilməsi;
- kənd yerlərində gəlirlərin əldə edilməsində qeyri-kənd təsərrüfatı sahələrinin artan rolunun dəstəklənməsi.

Məlumdur ki, gəlirlərin diferensiallaşması kənd ərazilərində sosial məqsədəuyğunluq hədlərində baş verməlidir. Həmin proseslər müxtəlif amillərin təsiri altında reallaşır. Bu amillərə əsasən aşağıdakılar aid edilir:

- şəxsi nailiyyətlər;
- fərdi qabiliyyətlərdəki mövcud fərqlər;
- ev təsərrüfatlarının maddi və maliyyə imkanları;
- ixtisaslı və ixtisassız əməyin ödənilməsində diferensasiyanın tətbiqi;
- demoqrafik xüsusiyyətlərin nəzərə alınması;
- sosial müdafiə sisteminin inkişaf səviyyəsi;
- ixtisaslı əməyə artan tələb və s.

Sivil bazar münasibətlərinin mövcudluğu belə kənd yerlərində əmək bazarının tənzimlənməsi zərurətini aradan qaldırmır. Gənclərin məşğulluğuna münasibətdə bu məsələ xüsusilə aktual olaraq qalır. Başqa sözlə, kənd yerlərində əmək qabiliyyətli yaşa çatmış gənclərin məşğulluq məsələsinin həll edilməsi müasir cəmiyyətin qarşısında duran ən mühüm problemlərdən biri kimi qəbul edilməlidir. Problemin səmərəli həlli gənclərin əmək prosesində fəal iştirakının təmin edilməsindən, gənclərin seçdikləri və aqrar iqtisadiyyatın tələbatına uyğun peşələr üzrə hazırlanmasından, gənclərin ümumi, orta, peşə-texniki, orta ixtisas və ali təhsil müəssisələrindəki təhsil və təliminin məhsuldar əməklə düzgün əlaqələndirilməsindən, gənclərə ixtisasdəyişmə və ixtisasartırma üçün lazımi şəraitin yaradılmasından birbaşa asılıdır.

Kənd təsərrüfatında səmərəli özünüməşğulluq mühitinin yaradılmasında ev və şəxsi həyətyanı təsərrüfatların rolunun düzgün qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Haqqında danışılan təsərrüfatlarda çalışanların əməyinin milli ərzaq təhlükəsizliyinin təminatına töhfələrinin artırılması kənd yerlərində əmək bazarının strukturunun rasional elementlərini gücləndirməyə xidmət edir. Digər tərəfdən nəzərə alınmalıdır ki, kənd yerlərində ev və şəxsi həyətyanı təsərrüfatlarda istifadə olunan iş qüvvəsinin həcmi və strukturunda baş verən dəyişikliklər, cəmiyyətin sosial problemlərinin həlli səviyyəsindən asılı olaraq dəyişir.

**Məşğulluğun keyfiyyət xarakteristikası**

Kənd yerlərində məşğulluğun səviyyəsi qadınların və gənclərin məşğulluğunun keyfiyyət xarakteristikaları, kənd yerlərində sosial infrastrukturun inkişaf səviyyəsindən asılı olur. Yəni, ev və şəxsi həyətyanı təsərrüfatdan iş qüvvəsinin azad olması bir çox amillərdən asılıdır və onlar əmək ehtiyatlarının mənbələri müəyyən edilərkən nəzərə alınmalıdır. Qeyd edilən mənbələr hesabına əmək qabiliyyətli əhalinin ictimai istehsala cəlbolunma imkanları müəyyənləşdirilərkən əsasən aşağıdakılar nəzərə alınır:

- iqtisadiyyatın əvvəlki dövrə nisbətən qadın əmək ehtiyatlarına tələbatı; Belə tələbat yarandıqda birinci növbədə körpələr evi və uşaq bağçaları şəbəkəsinin genişləndirilməsi və əhaliyə xidmət sahələrinin işinin yaxşılaşdırılması üzrə tədbirlər həyata keçirilir.
- bir yaşına qədər və çox uşağı olan anaların sayı;
- məktəbəqədər yaşda olan uşaqların körpələr evi və uşaq bağçaları ilə təminolunma səviyyəsi.

Bazar iqtisadiyyatı şəraitində bir sıra obyektiv və subyektiv səbəblərdən meydana gələn işsizlərin, işçi qüvvəsinin digər sahələr arasında yenidən bölüşdürülməsi imkanının yaranması dolayısı ilə əlavə işçi qüvvəsi mənbəyi kimi qiymətləndirilə bilər. Təcrübə göstərir ki, iş qüvvəsinə tələbat yarandıqda öncə işsizlər ordusuna müraciət edilir. Yalnız bu mənbə hesabına iş qüvvəsinə olan tələb ödənilmədikdə (əsas etibarilə peşə-ixtisas səviyyəsi, bəzən isə cins və yaşla əlaqədar olaraq) digər mənbələrin imkanlarından istifadə məsələlərinə baxılması məqsədəuyğun sayıla bilər.

Maddi istehsal sahəsi müəssisələrinin təsərrüfat-istehsal fəaliyyətinin səmərəliliyi istifadə edilən işçi qüvvəsinin kəmiyyət və keyfiyyət tərkibindən bilavasitə asılıdır. Elmi-texniki tərəqqinin müasir inkişaf səviyyəsi və sürəti istehsalın nəinki maddi ünsürlərində keyfiyyət dəyişikliklərinə səbəb olur, həm də iş qüvvəsi daşıyıcılarının özlərinin də intellektual səviyyə baxımından təkmilləşdirilməsinə zərurət yaradır.

Son illərdə ölkəmizdə aparılan sistemli və səmərəli tədbirlər sayəsində kənd təsərrüfatında innovasiya amilinin məşğulluqda oynadığı rola münasibətin optimallıq meyarları önə çəkilir. Məhz innovasiyalar sayəsində kənd təsərrüfatında əmək resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi imkanları real xarakter daşıya bilir.

Kənd yerlərində kənd təsərrüfatı hesabına məşğulluğun səviyyəsinin yüksəldilməsi imkanları işçi qüvvəsinin kəmiyyət, xüsusilə də keyfiyyət tərkibinin tətbiq edilən texnika və texnologiyanın inkişaf səviyyəsinə uyğunluğu ilə bilavasitə əlaqəlidir. Azərbaycanda 2004-cü ildən etibarən sistemli şəkildə həyata keçirilən regionların tarazlı və dinamik sosial-iqtisadi inkişaf siyasəti, kənd təsərrüfatının inkişafı ilə bağlı reallaşdırılan dövlət proqramları hazırda aqrar istehsal potensialının artırılmasında insan amilinin layiqli rolunu təmin etmiş, məhsuldar və layiqli əmək üçün kənd ərazilərində yaradılan şəraitin səmərəliliyi, əmək bazarının əsas xarakteristikalarının yaxşılaşdırılması üçün etibarlı zəmin yaratmışdır.

Kənd yerlərində məşğulluq səviyyəsinin yüksəldilməsi imkanlarının genişləndirilməsində kooperasiya və inteqrasiya amillərinin rolu da az deyildir. Bununla belə, digər postsovet məkanı ölkələrində olduğu kimi Azərbaycanda da bu amillərin məşğulluğa mövcud töhfəsi kifayət qədər yüksək sayıla bilməz. Belə vəziyyəti şərtləndirən səbəblər çoxsaylıdır. Konkret halda informasiya təminatı probleminə nəzər salaq. Məsələ ondadır ki, kənd yerlərində kooperasiya və intreqrasiya

proseslərinin informasiya bazası və ümumilikdə informasiya təminatı qənaətbəxş səviyyədə deyildir. Odur ki, müvafiq prosesləri xarakterizə edən göstəricilərin qiymətləndirilməsində ekspert yanaşmaları ilə kifayətlənmək lazım gəlir. Eyni zamanda tədqiqatçıların qeyd etdiyi kimi, "həmin qiymətləndirmə belə deməyə əsas verir ki, fəaliyyətdə olan kooperativlərin əksəriyyətində istehsal-iqtisadi göstəricilər arzuolunan səviyyədə deyildir" [2, s. 69]. Bu baxımdan müasir əmək bazarında və kənd ərazilərində əmək resurslarından səmərəli istifadə üçün kooperasiya və inteqrasiya amillərinin rolunun gücləndirilməsi perspektivli istiqamət hesab edilməlidir.

## Nəticə

Kənd yerlərində əmək bazarının inkişafı və kənd təsərrüfatında məşğulluğun səviyyəsinin yüksəldilməsi baxımından həmin ərazilərdə mikro və kiçik sahibkarlığın təşviq edilməsi əsasən gənclərin şəhərlərə arzuolunmaz miqrasiyasının qarşısının alınması, onların özünüməşğulluqlarının təmin edilməsi və potensial imkanlarından faydalı istifadə edilməsi mühüm istiqamətdir.

Təhlillər göstərir ki, müasir dövrdə aqrar əmək bazarında kənd əhalisinin əksər hissəsinin kənd təsərrüfatında çalışması və əməyin dəyərinin aşağı olması səciyyəvidir. Belə şəraitdə kənd yerlərində işçi qüvvəsi axını əmsalının yüksək olması, ixtisaslı kadrların çatışmaması, aqrar sahədə təsərrüfatçılıq formasının və fəaliyyət növünün seçim imkanının məhdudluğu, gender bərabərliyi problemi müşahidə olunur.

Kənd yerlərində əhalinin məşğulluğunun strukturunda özəl bölmə üstünlük təşkil edir. Fərdi sahibkar təsərrüfatlarında əmək məhsuldarlığının artımı işçi qüvvəsinə tələbin azalması ilə nəticələnir. İşçi sayının azalmasının mühüm səbəblərindən biri son illərdə respublikada intensivləşən urbanizasiya prosesləridir. Son illərdə kənd yerlərində əməyə motivasiyanın xüsusən gənclər arasında artmasında aqrar könüllülər hərəkatının böyük rolu qeyd olunmalıdır. Bu hərəkatın əhatə dairəsinin genişləndirilməsi üçün iqtisadi amillərlə yanaşı institusional amillərin də səfərbər edilməsi sürətləndirilməlidir.

Qeyd olunanlar ümumiləşdirilməklə belə bir nəticəyə gəlinir ki, Azərbaycanın aqrar regionlarında qeyri-ənənəvi iş sahələrinin inkişafı kənd yerlərində məşğulluğun səviyyəsinin yüksəldilməsində xüsusi əhəmiyyət daşıyır. Bu sahədə dayanıqlılığın təmin olunması özlüyündə innovativ inkişafı və yüksək ixtisaslı kadr potensialının hazırlanmasının zəruriliyini şərtləndirir.

## Ədəbiyyat

1. Барлыбаев А.А., Ишназаров Д.У., Ишназарова З.М. Современный рынок труда в сельской местности России. Вестник ПНИПУ социально экономические науки. 2006, 4, с. 229-242.
2. Quliyev E.A. Əhalinin etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri/ dissertasiya. Bakı, 2013, 278 s.
3. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, Nurlar, 2004, 503 s.
4. Sosial, iqtisadi inkişaf. Yanvar-dekabr 2020. http://www.stat.gov.az

S.R. Mustafayev
*Ph.D. student* of the Agricultural Research Center

**Directions for increasing the efficiency of employment in rural areas**

*Summary*

*In Azerbaijan, 47.2 percent of the population lives in rural areas and 33-35 percent of the rural population is able to work. In a market economy, it is necessary to resolve issues related to the employment of the growing able-bodied labor force in our country, increasing the level of labor productivity and in general, maintaining social living conditions at the level of modern requirements. In recent years, the implementation of state programs for the development of regions in our country has positively influenced the improvement of the socio-economic environment in rural areas, the weakening of migration processes.*

*The article examines the place and role of agriculture in providing employment in rural areas, increasing social welfare in rural areas, regulating the role of the state in the formation of incomes of the rural population and the functioning of the labor market.*

***Keywords:*** *socio-economic development, agriculture, labor resources, labor market, employment.*

С.Р. Мустафаев
*Докторант* Центра аграрных исследований

**Направления повышения эффективности занятости в сельской местности**

*Резюме*

*В Азербайджане 47,2 процента населения проживает в сельской местности и 33-35 процентов сельского населения трудоспособны. В условиях рыночной экономики необходимо решать вопросы, связанные с трудоустройством растущей трудоспособной рабочей силы в нашей стране, повышением уровня производительности труда и в целом поддержанием социальных условий жизни на уровне современных требований. В последние годы реализация государственных программ развития регионов в нашей стране положительно повлияла на улучшение социально-экономической среды в сельской местности, ослабление миграционных процессов.*

*В статье исследуются место и роль сельского хозяйства в обеспечении занятости в сельской местности, повышении социального благосостояния в сельской местности, регулирующая роль государства в формировании доходов сельского населения и функционировании рынка труда.*

***Ключевые слова:*** *социально-экономическое развитие, сельское хозяйство, трудовые ресурсы, рынок труда, занятость.*